

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 163 (21.573)

*1 sentyabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb.

Qonağı salamlayan Prezident İlham Əliyev dedi:

– Bu gün biz bütün sahələr üzrə – siyasi sahədə, iqtisadi sahədə fəal dialoq aparırıq. Bizi uğurla inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən həm nəqliyyat, həm də energetika sahələrində layihələr birləşdirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından çox məmnunuq. Əminəm ki, Sizin səfəriniz gələcək əlaqələrimizin dərinləşməsinə, möhkəmlənməsinə xidmət edəcək.

Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili dedi:

– Mən həqiqətən qardaş ölkədə olmaqdan çox şadam. Xalqlarımızı çoxəsrlik dostluq bağlayır. Biz həqiqətən də strateji xarakter daşıyan münasibətlərimizin gələcək inkişafını hərtərəfli dəstəkləyirik. Sizin artıq qeyd etdiyiniz kimi, bizi xalqlarımızın rifahının yaxşılaşdırılması üçün vacib olan və xalqlarımız arasında gələcək dostluğun möhkəmləndirilməsinə xidmət edən dostluq, strateji, regional, qlobal xarakterli layihələr bağlayır. Çox sağ olun.



## S.N.Əzimovanın Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sara Nurəddin qızı Əzimova 4 il müddətinə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 avqust 2016-cı il*



## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Seysmoloji Xidmət mərkəzi istifadəyə verilmişdir

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin maddi-texniki bazası gücləndirilmiş, alim və tədqiqatçılar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Bu sahədə görülən işlərin davamı olaraq bölmənin Təbii Ehtiyatlar İnstitutunun Seysmoloji Xidmət mərkəzi istifadəyə verilmişdir.

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Seysmoloji Xidmət mərkəzinin işi ilə tanış olmuşdur.

Açılışı bildirən lent kəsildikdən sonra məlumat verilmişdir ki, mərkəzdə ölkəmizdə ilk dəfə tətbiq olunan ABŞ-ın istehsalı olan ən müasir seysmoloji avadanlıqlar və proqram təminatı quraşdırılmışdır. Yeni avadanlıqlar vasitəsilə muxtar respublikanın Heydərabad, Şahbuz, Babək və Ordubad seysmik məntəqələrindən alınan məlumatlar peyk vasitəsilə Bakıda quraşdırılmış qəbuledici sistemə və eyni zamanda internet vasitəsilə mərkəzdəki kompüterə daxil olur. Nəzarət kompüteri verilən məlumatları təhlil edir və arxivləşdirərək yaddaşda saxlayır. Yaddaş qurğusu 24 terabayt tutuma malikdir ki, bu da məlumatların uzun müddətə saxlanmasına imkan verir. Həmçinin yeni avadanlıqlar vasitəsilə dünyanın istənilən yerində baş verən seysmik hadisələr haqqında məlumat almaq mümkündür. Bütün bunlar isə seysmik monitorinqlərin aparılması, yerin tərkibində tektonik proseslərin izlənməsi və seysmik fəallığın öyrənilməsi proseslərinin operativ şəkildə həyata keçirilməsinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Naxçıvanın seysmik cəhətdən aktiv ərazidə yerləşməsi və blokada şəraitində olması nəzərə alınaraq 2004-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun nəzdində Seysmoloji Xidmət mərkəzi yaradılmışdır. Ötən dövrdə muxtar respublikada bu sahədə bir sıra tədbirlər görülmüş, Heydərabad, Şahbuz, Babək və Ordubad seysmoloji məntəqələri fəaliyyətə başlamışdır. Lakin Seysmoloji Xidmət mərkəzinin avadanlıqları ötən əsrin 50-60-cı illərinin istehsalı olduğundan müasir tələblərə cavab vermirdi. Ona görə də Amerika Birləşmiş Ştatlarının bu sahədə fəaliyyət göstərən şirkəti ilə müqavilə bağlanılaraq yeni avadanlıqlar alınıb quraşdırılmış, muxtar respublikadakı məntəqələrlə əlaqələr yaradılmış və seysmoloji xidmət sahəsində fəaliyyət müasir tələblər səviyyəsinə çatdırılmışdır. Quraşdırılan yeni avadanlıqlar hesabına muxtar respublikanın ərazisində, ümumilikdə isə regionda seysmoloji aktivliyə tam nəzarət etmək mümkündür.

Ali Məclisin Sədri demişdir: Mərkəzin qarşısında duran əsas vəzifə muxtar respublika ərazisində seysmoloji dəyişiklikləri qeydə almaq, təhlil etmək və aidiyyəti üzrə məlumat verməkdən ibarətdir.

Ali Məclisin Sədri seysmoloji xidmət sahəsi üzrə mütəxəssislərin hazırlanmasının vacibliyini bildirmiş, kollektivi təbrik etmiş və onlara işlərində uğurlar arzulamışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublikada elmin inkişafı sahəsində həyata keçirilən tədbirlərə və yaradılan şəraitə görə alim və tədqiqatçılar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri seysmoloji xidmətin təşkili və bu sahədə elmi-tədqiqat işləri aparılması ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd olunmuşdur



***Avqustun 30-da Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Mirhəşim Seyidov rəsmi qəbulda çıxış edərək demişdir: Qardaş Türkiyənin inkişafı və demokratik cəmiyyət quruculuğu yolundakı uğurları bizi qəlbən sevindirir. Azərbaycan ilə Türkiyə xalqları tarixən bir yerdə olmuşlar. Bu gün də bir yerdədirlər. Ölkələrimiz arasındakı dostluq və inam xalqlarımızın rifahına, ölkələrimizin gələcək inkişafına xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər xalqlarımızın dərin tarixi kökləri olan, əsrlərin sınağından çıxmış dostluğundan, qarşılıqlı etibarından və etimadından qaynaqlanır".***

Ali Məclis Sədrinin müavini Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, qardaş Türkiyə xalqına inkişaf və əmin-amanlıq arzulamışdır.

Türkiyənin Naxçıvandakı Baş konsulu Nihat Ərşən çıxış edərək Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Gününün tarixindən, Mustafa Kamal Atatürkün rəhbərliyi ilə aparılan milli istiqlal mübarizəsindən və ölkəsinin müasir inkişafından danışmış, Türkiyənin dost və qardaş Azərbaycanla ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini bildirmişdir. Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının rolundan bəhs edən baş konsul bu əlaqələrin ilbəil genişləndirildiyini diqqətə çatdırmışdır.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbriki oxunmuşdur.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin avqust ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 avqust tarixli 75 nömrəli qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında, həmin tarixli 76 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 aprel tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 avqust tarixli 78 nömrəli qərarı ilə Naxçıvan Muxtar Respublikasında uşaqların məktəbə hazırlığının təşkili məsələləri təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 avqust tarixli 80 nömrəli qərarı ilə "Məktəbə hazırlığın təşkili Qaydaları", həmin tarixli 81 nömrəli qərarı ilə isə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" təsdiq edilmişdir.

"Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi"nin və "Ümumi təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 avqust tarixli 84 nömrəli qərarı qəbul edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində ***(www.huquqiaktlar.nakhchivan.az)*** tanış olmaq mümkündür.

# Akademik Həsən Əliyevin milli vətənpərvərlik qayğısı unudulmur



Akademik Həsən Əliyevin Azərbaycanda coğrafiya elminin inkişafında, xüsusilə qloballaşmış ekocoğrafi problemlərin həlli sahəsində əvəzsiz tövsiyələri və xidmətləri olmuşdur. Onun elmi-ictimai yaradıcılıq fəaliyyəti olduqca geniş və çoxsahəli olmuşdur. O, görkəmli təbiətşünas və coğrafiyaçı, eyni zamanda böyük torpaqşünas və ekoloq alim kimi tanınırdı. Yarım əsrdən artıq dövrü əhatə edən elmi yaradıcılıq salnaməsində Azərbaycanda təbiətşünaslıq, torpaqşünaslıq, coğrafiya elmləri yeni elmi-nəzəri və metodoloji yanaşmalarla zənginləşmiş və daha da müasirləşmişdir.

Keçən əsrin 30-cu illərində respublikamızın iqtisadiyyatının özülünün qoyulduğu bir vaxtlarda xüsusilə kənd təsərrüfatının yeniləşməsi, təbii sərvətlərin, o cümlədən torpaq ehtiyatlarının qeydə alınması və onların aqrar potensial imkanlarının öyrənilməsi tələb olunurdu. Torpaqla bağlı həm elmi-nəzəri, həm də təsərrüfat məsələlərinin həlli qarşıya qoyulmuşdu. Həsən Əliyevin torpaqşünas alim kimi ilk fəaliyyətə başlaması bilavasitə bu kimi məsələlərin həlli ilə bağlı olmuşdur. Ona görə onun bir vətəndaş, həm də görkəmli mütəxəssis alim kimi formalaşmasında bu dövrün milli-ictimai problemlərinin həlli mühüm rol oynamışdır.

Azərbaycanda, xüsusilə ətraf mühitin mühafizəsi, təbiətə böyük sosial-iqtisadi ziyan vuran ekocoğrafi və dağıdıcı təbii fəlakətlərə dair problemlərin həlli məsələlərində akademik Həsən Əliyevin elmi-təcrübi təklifləri və tövsiyələri həmişə nəzərə alınmışdır. Çünki o, vətənimizin torpaqlarını qarış-qarış gəzmişdir, onların paleogenetik təkamülünü və coğrafi zonallıq prinsiplərinin kompleks aqrotexniki aspektlərini yaxşı öyrənmişdir. Başqa bir tərəfdən, Azərbaycanda təbiətin, o cümlədən torpaq örtüyünün üfüqi və yüksəklik istiqamətində yayılmasının coğrafi qanunauyğunluqlarını o işləmişdir. Ona görə regionlarda aqrar təsərrüfatların bu qanuna uyğun formada yerləşdirilməsinə və torpaqlardan daha səmərəli və düzgün istifadələrinə əməl etməyi istəyirdi. Həsən Əliyev həmişə özünün böyük aqrotexniki tətbiqi təcrübəsinə əsaslanırdı. İlk dəfə Azərbaycanda istifadəsiz torpaqlardan dəmyə üzümçülükdə, bağçılıqda, otlaq təsərrüfatlarında istifadəsini və onların məhsuldarlıq dəyərini təcrübədə sınaqdan çıxartmışdır. Əldə olunan təcrübi nəticələrin tətbiqi Azərbaycanda 70-80-ci illərdə bu xarakterli təsərrüfatların, xüsusilə dəmyə üzümçülük sahəsinin artırılmasına geniş imkanlar vermişdir.

Vaxtilə Azərbaycanda Kür qırağı Tuqay meşələrinin biocoğrafi strukturunun və müasir vəziyyətinin kompleks tətbiqini yaxşılaşdırmaq, meşələrin kütləvi şəkildə qurumasının ekocoğrafi səbəblərini və onların arid xarakterli kserofit ağac kolları ilə əvəz olunmasının elmi əsaslarını işləmişdir. Bundan sonra Azərbaycanda Tuqay meşələrinin müasir vəziyyətini qoruyub saxlamaq tədbirləri və areallarını əks etdirən irimiqyaslı tətbiqi xəritələri hazırlanmışdır. Nəticədə, ölkəmizdə nəinki Tuqay meşələrinin, bütünlüklə müasir meşələrimizin bərpası və mühafizəsi üçün dövlət səviyyəsində kompleks meliorativ tədbirlər planının işlənib hazırlanmasına zərurət yarandı. Tədricən, meşələrin məhsuldarlığı, onların struktur ərazi tərkibi, sıxlığı və milli mühafizəsi sahəsində yeni təkliflər verildi. Xüsusilə Azərbaycanda meşələrin və digər uyğun təsərrüfatların gələcək bərpasının intensivləşdirilməsi üzrə ardıcıl tədbirlər sisteminin əsası qoyuldu. 1972-ci ildən başlayaraq respublikanın ayrı-ayrı bölgələrində zərərli radioaktiv elementlərin öyrənilməsi və onların xəritələşdirilməsi bilavasitə Həsən Əliyevin təşəbbüsü ilə oldu. Regionlarda bəsit texniki üsullarla istehsal olunan və filizsaflaşdırıcı kombinatların ətraf mühitə və kənd təsərrüfatının məhsuldarlığına, xüsusilə insanların sağlamlığına ziyanlı təsirini açıq-aydın göstərmişdir.

Artıq XX əsrin ortalarında akademikin müasir elm aləmində təklif etdiyi ən yeni "quru meliorasiya" və "fitomeliorasiya" kompleks tətbiqi metodikası ilk dəfə olaraq Siyəzən-Dəvəçi istiqamətində arid dağ yamaclarında iynəyarpaqlı şam meşələrinin salınması müasir torpaq eroziyasının intensivliyinə, xüsusilə qlobal səhralaşmaya qarşı təcrübi tövsiyəsi yenilik oldu. Bu metodun tətbiqi öz zamanında müasir ekocoğrafi tədbirlərin həyata keçirilməsində, landşaftın planlaşdırılmasında, xüsusilə aqrar islahatların aparılmasında mühüm əhəmiyyət kəsb edirdi. Aran və arid zonalarda min hektarlarla torpaqların deqradasiyasının, eroziya və denudasiya proseslərinin qarşısı alındı. Milli meşələrimizin, yamacların, unudulmuş yararsız torpaqlarımızın ekocoğrafi dəyərləri artmağa başladı. Akademikin yaradıcılıq təşəbbüskarlığı sayəsində Azərbaycanda min hektarlarla çirklənmiş torpaq sahələri yenidən rekultivasiya olunaraq istehsal dövriyyəsinə qatıldı. Bunların hamısı böyük təcrübəli alimin Azərbaycanda ilk dəfə "quru meliorasiya" və "fitomeliorasiya" metodlarının tətbiqi sayəsində davam etdirilmişdir. Azərbaycanın Kiçik Qafqaz, Talış zonası və Mərkəzi Aran regionlarında torpaq örtüyü ilə bitki örtüyü arasındakı ekocoğrafi və genetik bağlılığı təsnifləşdirildi. Respublikamızın dağətəyi rayonlarında, xüsusilə Böyük Qafqazın cənub ətəklərində yeni meyvə bağlarının salınması böyük əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar akademik Həsən Əliyevin Pirsaatçay, Ağsuçay və Girdmançay hövzələrində irimiqyaslı torpaq tədqiqatları öz səmərəsini verdi. Bir müddət sonra, yəni 1940-cı illərdə bu tədqiqatların davamı olaraq "Pirsaatçay hövzəsinin orta və aşağı axınlarının torpaq şəraiti və onlardan istifadəyə dair", "Ağsuçay və Girdmançay dərələrinin torpaqları meyvə bağlarının genişləndirilməsi fondu kimi" və "Böyük Qafqazın cənub-şərq yamacı çaylarının aşağı hissələrinin torpaqları" və sair yeni ideyaları, əsərləri işıq üzü gördü. Həmin tədqiqatların nəticələri onun bütün gələcək elmi yaradıcılığının əsas istiqamətlərini müəyyənləşdirdi. Bütün bu çoxillik yaradıcılıq illərində Həsən Əliyev özünün elmi-təcrübi potensialından vətəninin, xalqının və onun coğrafiyasının gələcəyi üçün səmərəli istifadə etmişdir. Xüsusilə Azərbaycan elminin inkişafı üçün tədqiqatlarını uğurla davam etdirmişdir. Torpaqşünaslıq elminin elmi-nəzəri və praktiki problemlərinin incəliklərini bilən alim həmişə torpaq coğrafiyasını torpaqşünaslığın ən mühüm sahəsi kimi qiymətləndirirdi. "Ayrı-ayrı relyef elementlərinə görə torpaq örtüyünün coğrafiyası" məqaləsində əslində Azərbaycanda bu elmi istiqamətin əsasını qoydu. Onun hərtərəfli elmi fəaliyyəti dairəsinə torpaqşünaslıq elminin nəzəriyyəsi, torpaqların coğrafiyası, ekologiya, botanika, biocoğrafiya, meşəşünaslıq, meşə meliorasiyası, təbii ehtiyatların mühafizəsi və onlardan səmərəli istifadə kimi çoxsaylı problemlərin həlli daxil idi. Hələ 1949-1952-ci illərdə onun rəhbərliyi ilə səkkizcildlik "Azərbaycanın florası" kitabının hazırlanmasında rolu alimin elmi marağının genişliyindən xəbər verirdi. Onun çoxsahəli elmi fəaliyyətində həmişə Azərbaycan təbiətinin varlığına və milli dəyərlərinə, vətənpərvərlik qayğısına üstünlük verilmişdir.

Coğrafiya İnstitutuna rəhbərlik etdiyi illərdə meşə torpaqları coğrafiyasının öyrənilməsinə, ekoloji tədqiqatların genişləndirilməsinə və xüsusilə meşəşünaslıq elminin inkişafına xüsusi fikir vermişdir. Azərbaycan ərazisində təxminən 40 min hektardan artıq qədim meşələrin altından çıxmış torpaqların bərpasını və daha səmərəli istifadə olunması yollarını müəyyənləşdirmişdir. Dağ yamaclarında meliorasiya və fitomeliorasiya metodlarını yenidən araşdırmış və yeni təcrübi əhəmiyyətli tövsiyələr əlavə etmişdir.

Hazırda Milli Elmlər Akademiyasının bilavasitə akademikin adını daşıyan Coğrafiya İnstitutunda xüsusi şöbələrdə bu tövsiyələrin və təkliflərin tətbiqi müvəffəqiyyətlə davam etdirilir və sanballı elmi nəticələr əldə olunur. Hələ 1898-ci illərdə məşhur rus alimi Dokuçayevin Qafqazda kəşf etdiyi torpaqların şaquli zonallıq prinsipinə dair akademikin xüsusilə Böyük Qafqaz dağlarının torpaqlarının genetik-coğrafi və strukturu cəhətdən formalaşmasına dair söylədiyi coğrafi fikirləri və ideyaları bir daha müvəffəqiyyətlə öyrənilir. Onun "Azərbaycanda qəhvəyi meşə torpaqlarının yayılması", "Azərbaycanda qara torpaqların yayılması məsələsinə dair", "Böyük Qafqazın şərq hissəsinin qəhvəyi meşə torpaqları" və sair elmi əsərlərindəki konstruktiv tövsiyələri elmi dəyərinə görə indi də yüksək nüfuz qazanmışdır.

Həsən Əliyev xüsusilə ömrünün son dövrlərində Azərbaycanda təbiətin qorunması məsələsində milli ağrılı bir problem kimi "Həyəcan təbili" (1976) kitabını yazdı. O, kitabında Azərbaycanda təbiətin kəskin deqradasiyaya uğramasının səbəblərini və onun qarşısının alınmasında hər bir azərbaycanlının əsas vəzifəsi hesab etmişdir.

Həmin kitabında akademik yazmışdır: "Torpaq dilə gəlib şikayətləndi. Kimdən? Özünün "süd verib, bəslədiyi" insanlardan, sinəsinə yara vuranlardan, gözlərinə zəhər tozu üfürənlərdən. Mən isə torpağın övladlarından birisi kimi haray saldım ...dedim ki, qoy səsimi hamı eşitsin. Bu "Həyəcan təbili"ni insanların qulağının dibindən asmaq lazımdır".

Həmin kitabın nəşrindən 30 ildən çox keçməsinə baxmayaraq, indi də insanlarda onun təbiətə olan milli vətənpərvərlik çağırışları respublikamızda hər bir təbiət guşəsinin, istirahət mərkəzlərinin, bütövlükdə müasir landşaftların aqrotexniki planlaşdırılması texnologiyasında öz səmərəli aktuallığını qoruyub saxlamışdır. Hələ 40 il əvvəl zəhmətsevər alim öz ömür təcrübəsinə əsaslanaraq böyük həyəcanla yazırdı: "Düzənliklərdə münbit torpaqların ərsəyə gəlməsi üçün milyon illər lazımdır, lakin onun yararsız hala düşməsi üçün bizə uzun illər lazım gəlmir". Həqiqətən, hazırda bəzi aran rayonlarımızda qədim drenaj-kollektor sistemlərinin fəaliyyətinin müasir texnoloji baxımdan aşağı səviyyədə olması, itib-batması torpaqlarımızın ciddi şorlaşmasına və sıradan çıxmasına səbəb olan ən yaxşı misaldır.

Uzun illərdən bəri sovet məkanında respublikamızın yeraltı və yerüstü sərvətləri, həqiqətən intensiv istismar olunurdu, lakin onların vaxtlı-vaxtında qorunmasına və bərpasına fikir verilmirdi. Nəhayət, 1969-cu ildə Azərbaycan EA Coğrafiya İnstitutunda bilavasitə akademik H.Ə.Əliyevin təşəbbüsü ilə yaradılmış müstəqil təbiəti mühafizə şöbəsi bu problemlərin həllini və milliləşdirilməsi missiyasını öz üzərinə götürdü. Ölkəmizdə ətraf mühitin mühafizəsi və problemlərin həlli ilə bağlı geniş elmi islahatlara başlanıldı. O cümlədən dağ mədənlərində pozulmuş torpaqların rekultivasiyası, pozulmuş meşələrin yenidən bərpası, meşə ziyanvericilərinə qarşı bioloji mübarizə üsulları, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrinin yenidən təşkili, atmosferin çirklənməsi və sair yeni aqrar-istehsal metodları işlənildi. Dövlət səviyyəsində Azərbaycanın meşə təsərrüfatlarının inkişafına dair yeni tətbiqi xəritələr və layihələr hazırlandı. Meşələrin bərpası işlərində yerli şəraitə uyğun ağac növlərinə üstünlük verildi. Akademikin rəhbərliyi ilə Qarayazı məntəqəsindən başlamış Xəzər dənizinədək Kürboyu uzanan qədim Tuqay meşələrinin mühafizəsi və bərpasına yenidən baxıldı. Meşəçilik sahəsində əldə olunan yeni tətbiqi metodların və təcrübələrin nəticələrindən Qarayazı, İsmayıllı və Lənkəran dövlət qoruqlarının bərpasında və inkişafında geniş istifadə edildi. Əldə olunmuş elmi nəticələr "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları" (1964), "Qəhvəyi meşə torpaqları" monoqrafiyalarında elmi yenilik kimi nəşr olundu. Yeni elmi-metodoloji fikir və ideyaların təbliği aparıldı.

Akademik H.Ə.Əliyev Azərbaycanda meşə torpaqşünaslığı üzrə torpaqların coğrafi qanunauyğunluqları və zonallıq prinsiplərinə müəyyən əlavələr etmişdir. Dövlət sahə qoruyucu meşə zolaqlarının layihəsini əsaslandırmaq məqsədilə uzun müddət Gəncə, Qazax göl massivi boyu hərtərəfli torpaq tədqiqatları aparmışdır. Xüsusilə quru yamaclarda terras xarakterli məsələlərin inkişafı ona həvalə olunmuşdu. Bütün bunları nəzərə alaraq Azərbaycan EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda akademik H.Əliyevin rəhbərliyi ilə ayrıca meşə torpaqları laboratoriyası yaradıldı. Böyük və Kiçik Qafqazda, Talış dağlarında meşələrin torpaq-ekoloji tədqiqatları davamlı aparıldı.

Ardıcıl aparılan torpaq tədqiqatları göstərdi ki, Azərbaycan ərazisinin əksər hissəsində səthi yuyulma və külək eroziyası getdikcə fəallaşır. Ona görə hələ əsası 1945-ci ildən qoyulmuş torpaq eroziyasına dair tədqiqatların miqyası genişləndirildi. İlk mərhələdə respublikada eroziya törədən coğrafi amillərin xəritəsi tərtib edildi. Eroziyaya daha çox məruz qalmış torpaq sahələri müəyyənləşdirildi, eroziya ilə mübarizə üçün yeni aqrotexniki, meşə-meliorativ tədbirləri işlənildi. Müasir dövrün ən aktual problemlərindən biri olan təbiətin mühafizəsi kompleks məsələsi ön plana çıxarıldı, bu sahədə elmi-tədqiqat işlərinə geniş yer verildi.

Azərbaycanı qarış-qarış gəzməyi sevirdi, çoxillik təcrübəsinə əsaslanaraq meşələrin məhsuldarlığını artırmaq, onların sahəsini ildən-ilə genişləndirmək, meşə bitkiləri ilə torpaq örtüyü arasındakı mikrobioloji mübadilənin mexanizmini öyrənməyə çalışırdı. Həmişə xarici ölkələrdəki nümunəvi təcrübələri vətənimizə tətbiq edirdi. Məsələn, almanlar meşələrə çox mənalı və müasir səslənən ad veriblər: "Yaşıl ciyər". Almanların meşələrə olan bu qayğı və məhəbbətini qəbul edərək, onların yaşıllıqlar səltənətinə təkrar-təkrar səyahət edib, oradakı səliqə və təmizliyə heyran olduğunu yazmışdır. Akademik H.Ə.Əliyev bu iki ölkənin coğrafiyasını müqayisə edərək çox təəssüflə qeyd edir ki, Almaniyanın sahəsi Azərbaycanın ərazisindən bir az böyükdür. Ancaq orada müxtəlif heyvanlar – maral, cüyür, qaban, dağ keçisi sürü ilə gəzdiyi halda, bizim meşələrdə bunlar barmaqla sayılır. Bunların səbəbini birinci növbədə, özümüzdə axtarmalıyıq və vətənpərvərlik, təbiətə məhəbbət hisslərini artırmağa çalışmalıyıq. Vaxtilə görkəmli akademik dəfələrlə təklif etmişdir ki, respublikamızda təbiətin, o cümlədən torpaqların mühafizəsi üçün xüsusi elmi təcrübi stasionarların yaradılması vacibdir. Bilavasitə Həsən Əliyevin təşəbbüsü ilə yaradılmış "Azərbaycan təbiəti" jurnalı bütövlükdə təbiətşünaslıq mədəniyyətinin kütləvi təbliğatını təşkil etdi. Bundan sonra respublikamızda təbii fitobioloji resursların potensial ehtiyatları, texniki yataqların genetik-coğrafi xarakteristikası tədqiq edildi. Akademik H.Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanda yeni qoruq və yasaqlıqlarımızın, milli parklarımızın sayı hazırda gündən-günə artır. Səmərəli elmi fikirlərə əsaslanaraq parklarımız yenidən layihələşdirilir, milliləşdirilir, yəni ərazi struktur tutum potensialı cəhətdən kompleksləşdirilir. Bunların hamısı milli parklarımızın coğrafi potensialından daha kompleks istifadə olunması ilə bağlıdır. Respublikamızın müxtəlif ərazilərində yerləşən bu təbii parkların və yasaqlıqların hərəsinin özünəməxsus ekobioloji müxtəlifliyi vardır.

Akademik H.Əliyev ölkəmizdə müasir ekocoğrafi problemlərin sırasında su probleminin həllinə də həmişə xüsusi fikir vermişdir. Məlum olduğu kimi, respublikamızda suya olan ehtiyacımız ildən-ilə artır. Ona görə də o, sudan kənd təsərrüfatında, adi məişətdə daha qənaətlə və səmərəli surətdə istifadə etməyi tələb etmişdir. Azərbaycan təbiətinin, hər qarış torpağının və suyunun mühafizəsi sahəsində H.Əliyevin təcrübi xidmətləri əvəzsizdir. O, radio, televiziya və mətbuat vasitəsilə cəmiyyətin ekoloji maarifləndirməsinə, mədəniyyətinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi.

*Ardı 3-cü səhifədə*

Həmişə təbii ehtiyatların kompleks tədqiqi və təsərrüfat istifadəsini elmi cəhətdən əsaslandırırdı. Çünki təbii sərvətlərin mühafizəsində və istehsalında birinci növbədə insan amili, onların sosial vəziyyəti mühüm yer tutur. Həsən Əliyev bu barədə yazırdı: "Bir şeyi yadda saxlamaq lazımdır: yer üzərindəki bioloji mühit məhv olan deyil, onun nizamının pozulması yeni bir mühit yaradıb, bu mühiti yaşada bilər. Yerin geoloji inkişaf tarixində belə hallar olmuşdur. Lakin coğrafi mühitin dəyişdirilməsi müəyyən mənada bəşərin varlığını təhlükə qarşısında qoyur. Ona görə insan özü-özünün, həm də çevrələrindəki təbiətin keşikçisi olmalıdır, başqa heç bir canlı onun harayına çatmayacaq". Həqiqətən, akademik Həsən Əliyevin bu tarixi müdrik kəlamları XX əsr Azərbaycan təbiətinin qorunmasının dağılmaz sipərinə çevrilmişdir. O, insanları sevdiyi kimi vətəninin çiçəyini də, çəmənini də, ağacını da, heyvanlarını da, ümumən, əsrarəngiz landşaftlarını ürəkdən sevirdi. Çünki akademik Həsən Əliyev həm özü yaşayırdı, həm də təbiəti yaşadırdı. Həsən Əliyev şəxsiyyəti ictimai milli həyatımızda, yaddaşlarımızda təbiətin ən böyük mühəndis keşikçisi olaraq qalmışdır. Onun vaxtilə qaldırdığı milli ekocoğrafi problemlərin həlli bu gün də olduqca aktualdır. Ona görə vaxtilə qaldırdığı həyəcan təbili harayı indi də vətənini sevən hər bir kəsin qulağında daim səslənir, doğma ana təbiətin vətənpərvərlik harayına qoşulur. Bizim hər birimizin vətənpərvərlik borcumuz isə tanınmış akademik H.Əliyevin elmi ideya və tövsiyələrini daima qoruyub yaşatmaqdır.

**Habil HAQVERDİYEV**
**Tünzalə İSMAYILOVA**
***"Respublika" qəzeti, 31 avqust 2016-cı il***

## Naxçıvanda çörək festivalı keçirilmişdir

*Avqustun 30-da Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində "Naxçıvan çörəkləri" festivalı keçirilmişdir.*

Tədbirin aparıcıları qeyd etmişlər ki, Azərbaycanda çörək əsrlərdən bəri bolluq və bərəkət rəmzi sayılıb. Tarixboyu çörək andımız, alqışımız olub. Böyüklərimiz dostluğu daha da möhkəmləndirmək üçün duz-çörək kəsiblər. Qonaq gələndə süfrəyə birinci duz-çörək gətirilib. Bu ilin may və iyun aylarında muxtar respublikada "Yaradıcı əllər", "Göycə" və "İstedadlı uşaqlar" festivalları keçirilmişdir. Bu gün keçirilən "Naxçıvan çörəkləri" festivalı da muxtar respublikanın bölgələrinə xas müxtəlif çeşidli çörək növlərinin və onların hazırlanması qaydalarının nümayişi baxımından olduqca əhəmiyyətlidir.

Festivalda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi, aqrar elmlər üzrə fəlsəfə doktoru Pərviz Fətullayev çıxış edərək demişdir ki, muxtar respublikada enerji təhlükəsizliyi ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunması da diqqət mərkəzində saxlanılır. Ərzaq təhlükəsizliyinin təminatında isə taxılçılığın inkişafı mühüm yer tutur. Çünki taxılçılıq əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəyən əsas sahədir. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraitinə uyğun onlarla yerli və məhsuldar taxıl sortu müəyyənləşdirilərək əkininə başlanılmışdır. Hazırda muxtar respublikada 15 taxıl anbarı və gündəlik istehsal gücü 432 ton olan 15 taxıl emalı müəssisəsi fəaliyyət göstərir.

Qeyd olunmuşdur ki, çörək milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanlar üçün müqəddəs nemətdir. Çörək tarixən xalqın sərvəti olmaqla yanaşı, həm də qüdrəti hesab olunmuşdur. Xalqımız qədim zamanlardan çörəyə xüsusi münasibət bəsləmiş, çörəklə bağlı atalar sözü və məsəllər yaratmışdır. Çörək bəşər övladına 15 min il bundan əvvəl məlum olub. Məhz bu səbəbdən çörəyin tarixi bəşəriyyətin yarandığı gündən hesablanır.

Bəşəriyyətin beşiyi olan Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı isə kömürləşmiş buğda və arpa, eləcə də müxtəlif formalı təndirlər tapılmışdır. Bu da Naxçıvanda buğda bitkisinin becərilməsinin və çörək hazırlanmasının qədim tarixə malik olduğunu göstərir.





Pərviz Fətullayev demişdir ki, Naxçıvanda çörək, bir qayda olaraq, təndirdə, çuqun və gil saclarda, həmçinin xüsusi soba və kürələrdə bişirilir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində çörəyin bişirilməsi tarixən xüsusi mərasimlərlə qeyd edilmişdir. Lavaş, tapı, darı, cadı, dəstana, bozdamac, sac lavaşı, nazik, qalın, çıppa, bombu, kömbə, fətir, bəysumat, xamralı tarixən Naxçıvan mətbəxinə aid olan çörək növləridir. Bu çörək növləri bu gün də süfrələrimizin ən ləziz neməti hesab olunur. Bu gün Naxçıvan Muxtar Respublikasında 124 çörək istehsalı müəssisəsi fəaliyyət göstərir və bunlarda əhalinin tələbatına uyğun olaraq 25 çeşiddə çörək istehsal olunur. Son illər Culfa rayonunun Camaldın, Kırna və Saltaq kəndlərində qədim su dəyirmanlarının bərpa olunması da bu sahədə görülən işlərin tərkib hissəsidir. Hazırda bu su dəyirmanlarında insan sağlamlığı üçün faydalı və ekoloji cəhətdən təmiz un istehsal olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada xalq yaradıcılığı günlərinin keçirilməsi ilə bağlı sərəncamına uyğun olaraq milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılması və yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Milli dəyərlərimizin bir parçası olan Naxçıvan mətbəxinin öyrənilməsi də diqqət mərkəzində saxlanılır, milli mətbəx nümunələrimiz geniş təbliğ olunur. "Naxçıvan çörəkləri" festivalının keçirilməsi də əsrlərboyu formalaşmış kulinariya mədəniyyətimizin öyrənilməsi və təbliği ilə yanaşı, həm də bu mədəniyyətin gələcək nəsillərə çatdırılmasına xidmət edir.



Pərviz Fətullayev "Naxçıvan çörəkləri" festivalının keçirilməsinə göstərdiyi diqqət və qayğıya görə festival iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmiş, festival açıq elan olunmuşdur.

Sonra tədbir iştirakçıları Naxçıvan çörəklərinin sərgi-satışı və bişirilməsi ilə tanış olmuşlar.

Məlumat verilmişdir ki, festivala Naxçıvan mətbəxinin ayrılmaz parçası olan çörək nümunələri çıxarılmışdır. Muxtar respublikanın hər bölgəsinin özünəməxsus mətbəxi olduğu kimi, həm də müxtəlif formalarda bişirilən çörək nümunələri vardır. Naxçıvan ərazisində aşkar olunan çörək məmulatları, çörək bişirilməsi üçün istifadə olunan əşyalar və əkinçilik alətləri əcdadlarımızın zəngin məişət mədəniyyətinə malik olduğunu təsdiq edir. Bu gün öz dadı və keyfiyyəti ilə seçilən, ekoloji cəhətdən təmiz və insan sağlamlığı üçün faydalı olan Naxçıvan çörəklərinə tələbat artır. Hazırda muxtar respublikanın çörək istehsalı müəssisələrində kürə çörəyi, lavaş, çovdar və qarğıdalı çörəkləri, yağlı dəstana və digər çörək növləri ilə yanaşı, həm də hazırlanma forması min illərdir, davam edən qədim çörək nümunələri də bişirilir.



Festivalda "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin, o cümlədən çörək istehsalı ilə məşğul olan 25 fiziki və hüquqi şəxsin hazırladığı müxtəlif çörək çeşidlərinin sərgi-satışı və bişirilməsi təşkil edilmiş, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı iştirakçılara xoş ovqat yaşatmışdır. Çörək festivalı Naxçıvan mətbəxinin zənginliyini bir daha nümayiş etdirməklə yanaşı, muxtar respublikaya gələn turistlərin də böyük marağına səbəb olmuşdur.

Festival çərçivəsində "Ən dadlı çörək" nominasiyası üzrə müsabiqə keçirilmiş, qaliblərə diplom, "Naxçıvan mətbəxi" kitabı və hədiyyələr təqdim olunmuşdur.

**"Şərq qapısı"**

## Qarabağlar Türbə Kompleksi bərpa olunur

***Tarixi abidələrin bərpası və onların qorunaraq gələcək nəsillərə çatdırılması mədəni cəmiyyətin mühüm tələbatlarından biridir. Tarixin yaşadılması, gələcəyə sağlam addımlar atılması cəmiyyətin sosial-mədəni inkişaf imperativləri arasında özünü təsdiq etdiyi kimi, xalqın minillik keçmişindən bu günə qədər gəlib çatmış tarixi abidələrin yaşadılması da bu günün tələbidir. Naxçıvanın qədim tarixini, onun zənginliyini özündə yaşadan Qarabağlar türbəsinin də bərpası məhz belə humanist amala, mədəniyyətlərarası dialoqa xidmət edir.***

Qarabağlar türbəsi Kəngərli rayonunun eyniadlı kəndinin şimal-qərb hissəsində yerləşir. Qarabağlara kənd desək də, tarixi mənbələrə görə, bir zamanlar bu yaşayış məntəqəsi kifayət qədər böyük bir şəhər olub. Daha dəqiq desək, elmi mənbələrdə XII-XIV əsrlərdə Qarabağların bir şəhər kimi inkişaf etdiyi və bu zaman da bu türbənin tikildiyi bildirilir. Başqa sözlə, Qarabağlar türbəsi orta əsrlər Şərq və Azərbaycan memarlığının mühüm bir nümunəsi olmaqdan əlavə, həm də bu dövrdə güclənmiş dövlətlərin iqtisadi-mədəni inkişaf səviyyəsindən, həmin dövlətlərin insana, onun ad-sanına, xidmətlərinə verdiyi qiymətdən və nəhayət, bir zamanlar bu torpaqlara sahiblik edəcək varislərə bir iz qoyub getmək kimi mühüm motivlərdən xəbər verən qiymətli tarixi əsərdir.



Naxçıvanda mövcud olan digər tarixi abidələr kimi, Qarabağlar türbəsi də beş-on dəqiqə tamaşa edilib keçiləcək sadə bir tikili deyildir. Türbə özünün yeri, memarlıq üslubu, inşasına sərf olunmuş materialların orijinallığı və digər bənzərsizlikləri ilə təkcə tarix bilicilərini deyil, eyni zamanda hər kəsi saatlarca düşündürən sirli bir kitabədir. Şərq tarixinin mühüm bir hissəsi olan Naxçıvanda formalaşmış qədim şəhər mədəniyyəti, burada Qarabağların yeri və əhəmiyyəti kimi sualların bir çoxunun cavabı məhz bu türbənin öyrənilməsi ilə gün üzünə çıxacaq. Buna görə də "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 4 iyul 2016-cı il tarixli Sərəncamı sahib olduğumuz tarixi zənginliklərin qorunub saxlanılmaqla gələcək nəsillərin istifadəsinə verilməsi, onların dünya mədəni mirasına qazandırılması yolunda mühüm addımdır.

Kompleksin bərpası üzrə işlərin necə getdiyini öyrənmək üçün Qarabağlar kəndinə üz tutduq. İş icraçısı Ziya Əliyevlə söhbətimizdə bildirdi ki, bərpa işlərinə iyulun 15-dən start verilib. Xeyli miqdarda iş görülüb. Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Aparılan bərpa işləri zamanı türbə və qoşa minarə hissələri bərpa ediləcək, bunlar arasındakı bölüm, habelə dörd təndir konservasiya olunacaq. Zaman ərzində baş verən proseslər nəticəsində türbənin daha çox aşınma və dağılmaya məruz qalmış dam örtüyü hissəsinin, giriş qapılarının bərpası üzərində xeyli işlər görüləcək.

Qarabağlar türbəsi sərdabə və yerüstü xatirə abidəsindən ibarətdir. Sərdabə onikibucaqlı olub divarları daşdan, günbəzi isə kərpicdən inşa edilib. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarımsilindrdən ibarətdir. Türbənin dörd giriş qapısından biri olan əsas giriş qapısı üzərində kitabədə müqəddəs "Qurani-Kərim"dən 6 ayə ("Mülk" surəsi) həkk olunub. Bu qapının kənarları çox incə naxışlarla işlənib. Görüləcək işlər zamanı bu naxışlar da bərpa olunacaq .

Həmsöhbətim onu da bildirdi ki, həyata keçirilən bərpa işləri zamanı kompleksin ətrafı abadlaşdırılacaq, kəndin girişindən buraya yeni yol çəkiləcək. Ümumilikdə, kollektiv bu mühüm abidənin bərpasının uğurla başa çatacağına əmindir. Muxtar respublika rəhbərinin tarixi abidələrin qorunmasına göstərdiyi böyük diqqət və qayğı, Naxçıvandakı digər tarixi əsərlərin bərpası zamanı əldə olunmuş təcrübə bunu deməyə əsas verir. "Tarixi abidələrin bərpası daha çox zehni iş tələb edir. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mütəxəssisləri Arif Əzizov və Qoçəli Əliyevin bu işlərin öhdəsindən layiqincə gələcəyinə inanırıq", – deyir iş icraçısı.

Qarabağlar türbəsi və Naxçıvanın tarixi abidələri Azərbaycan xalqının milli sərvətidir. Bu gün ərsəyə gətirilən əsərlər kimi min il əvvəl də yaradılmış bütün maddi və mədəni sərvətlərimizə sahib çıxılması, onlara qayğı göstərilməsi bugünkü iqtisadi-mədəni gücümüzün yaratdığı tarixi bir fürsətdir. Hər yüz ildən bir yetişən belə fürsətlərdən qazandıqlarımızın qiymətini isə yenə tarix verəcək.

**✍ Əli CABBAROV**

# “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın V mərhələsi keçirilib

***Müsabiqənin keçirilməsində məqsəd milli musiqi mədəniyyətimizin və incəsənətimizin təbliğ edilməsi, xalq mahnı və təsniflərinin ifaçılığı üzrə istedadlı şəxslərin aşkara çıxarılması, onların yaradıcılıq potensialının düzgün istiqamətləndirilməsidir. Müsabiqənin əsas turunun birinci mərhələsinə aprel ayının 29-da Naxçıvan şəhərində start verilib. Əsasnaməyə əsasən, müsabiqənin təşkilat komitəsi və muxtar respublikanın tanınmış incəsənət xadimlərindən ibarət münsiflər heyəti yaradılıb.***





Müsabiqədə iştirak edənlərə yaş həddi və təhsil məhdudiyyəti qoyulmayıb. Müsabiqədə münsiflər heyətinin üzvü olan müəllimlərin öz tələbələrinə səs verməsi məhdudlaşdırılıb. Müsabiqənin gedişində konsertə qədər iştirakçılar həftədə iki dəfə olmaqla peşəkar müəllimlərin rəhbərliyi altında ansamblla məşq edirlər. Yekun konsertin noyabr ayında Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulur. Qaliblər yekun konsertində mükafatlandırılacaqlar.

Tədbirdən əvvəl aparıcılar bildiriblər ki, Azərbaycanın zəngin folklor janrları arasında xalq mahnıları xüsusi yer tutur. Janr rəngarəngliyinə, forma və bədii ifa xüsusiyyətlərinə görə seçilən bu mahnılar xalqımızın milli dəyərlərini, adət-ənənələrini özündə ehtiva edir. Azərbaycan xalqının qədim və zəngin musiqi yaradıcılığında xalq mahnılarının özünəməxsus yeri və rolu var. Xalq mahnılarının ürəkaçan melodiyaları, poetik mətni hər bir dinləyicinin qəlbinə yol tapır. Xalq mahnılarımızın hamısı klassik muğamlara əsaslanaraq onlardan qidalanıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə təşkilatçılığı ilə “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”ya beş aydır, start verilib. Müsabiqənin əsas turunun birinci mərhələsində 15 iştirakçı çıxış edib.

Bildirilib ki, müsabiqənin əsas turunun ikinci mərhələsi iyunun 3-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində, üçüncü mərhələsi iyunun 30-da Ordubad rayonunda, dördüncü mərhələsi iyulun 28-də Babək rayonunda keçirilib. Bu gün isə əsas turun beşinci mərhələsi keçirilir.

Aparıcılar müsabiqənin münsiflər heyətini tamaşaçılara təqdim ediblər. Sonra əsas turun dördüncü mərhələsində iştirak etmiş ifaçılar haqqında qısa məlumat verilib, onların bu mərhələdə topladıqları ballar bir daha elan olunub.

Sonra xalqımızın ruhundan süzülüb gələn, qəlbləri riqqətə gətirən təsniflər səsləndirilib. Tarda Sərxan Abdullayevin, kamançada Nurlan Nuriyevin, udda Cəlil İsmayılovun, qanunda Günel Fərəcovanın, balabanda Nihad Quliyevin, nağarada Mahir Rüstəmovun müşayiəti ilə müsabiqə iştirakçıları Aqil Adilzadə (Culfa rayonu, Bənəniyar kəndi, 216 bal) “Ay bülbüllər”, Məhərrəm Quliyev (Culfa rayonu, Bənəniyar kəndi, 214 bal) “Tellərini yan dara, qız”, Fərman Allahverdiyev (Şərur rayonu, Tənənəm kəndi, 221 bal) “Ay qəşəng ceyran”, Fuad Qədimov (Sədərək rayonu, Qaraağac kəndi, 229 bal) “Yar şirin olar”, İlham Məmmədov (Kəngərli rayonu, Böyükdüz kəndi, 234 bal) “Üç meyvə”, Əsmər Hüseynova (Ordubad şəhəri, 236 bal) “Yar gəldi”, Bəhruz Quliyev (Culfa rayonu, Saltaq kəndi, 234 bal) “Ay qız, kimin qızısan”, Təyyar Mədətli (Şahbuz rayonu, Kolanı kəndi, 228 bal) “Bəri bax”, Rəşad Nəcəfov (Culfa şəhəri, 230 bal) “Ay mənim məhəbbətim”, Səfər Cəfərov (Babək rayonu, Nehrəm kəndi, 241 bal) “Sarı bülbül”, Elmar Qasımov (Naxçıvan şəhəri, 242 bal) “Rəhm eylə”, Ataxan Quliyev (Naxçıvan şəhəri, 250 bal) “Şuşanın dağları”, Yusif Hacıyev (Naxçıvan şəhəri, 254 bal) “Alma almaya bənzər” xalq mahnılarını ifa ediblər.

Sonda müsabiqənin Naxçıvan şəhərində keçirilən mərhələsinin nəticələri elan olunub. Beləliklə, müsabiqənin şərtlərinə əsasən, bu turda ən az bal toplamış iştirakçı müsabiqəni tərk edib.

**Əli RZAYEV**

## Su içmək müşkülə çevriləndə...
## *(Replika)*

– Yola çıxırıq, gəl  mağazadan bir-iki şüşə su alaq.

– Ehtiyac yoxdur, Naxçıvan-Şərur yolu üzərində bir neçə bulaq-abidə kompleksi var. Həm su içərik, həm də yolun yorğunluğunu çıxararıq.

– Birdən su gəlməsə?

– Ola bilməz. Deyirsən yəni yol üstündə yaradılmış bir neçə bulaq-abidə kompleksinin heç birində su olmayacaq?

...Bu qısa dialoq, təxminən, iki-üç gün əvvəl Şərur rayonuna yollanarkən mənimlə redaksiyanın fotoqrafı arasında olmuşdu. Beləliklə, iş yoldaşımı su almaq fikrindən daşındırmışdım.









Xülasə, yola çıxdıqdan, təqribən, 30 dəqiqə sonra gedib çatdıq Kəngərli rayonunun girişindəki bulaq-abidə kompleksinə. Avtomobili saxladıb əmin addımlarla bulaq-abidə kompleksinə tərəf getdikdə buradakı bulağın çoxdan suya həsrət qaldığını gördüm və fotoqrafı su almaq fikrindən daşındırdığım üçün az da olsa, peşmançılıq hissi keçirdim. Ancaq bu qədər tez təslim olmaq da istəmədim. Qarşıda yenə bulaq var, oradan su içərik deyib avtomobilə oturdum. Fotoqrafa sübut etmək istəyirdim ki, mən haqlıyam. Ancaq Kəngərli rayonunun Qabıllı kəndi ərazisindəki bulaq-abidə kompleksi də yol yoldaşımı haqlı çıxardı. Çünki bu bulaqdan su gəlməməyi bir yana dursun, su kranlarını açmaq belə, mümkün deyildi. Sanki su kranları bir daha açılmamaq üzrə bağlanmışdı.

Ancaq  yenə qarşıdakı bir bulaq kompleksində su tapacağıma dair ürəyimdə bir ümid  işığı var idi. Bu işığı  da Kəngərli rayonunun çıxışında yaradılan bulaq-abidə kompleksi söndürdü.

Avtomobilimiz Şərur rayonunun Danyeri kəndinin girişindəki bulaq-abidə kompleksinin qarşısında dayananda daha avtomobildən enmək istəmədim. Pəncərədən bulaq-abidə kompleksinin qarşısındakı səkidə oturmuş iki kənd sakinindən suyun gəlib-gəlmədiyini soruşdum. Adamların dərdi açıldı. Dedilər ki, hər həftə bu əraziyə iməciliyə çıxırlar. Yayın istisində tək güman bu bulaqdan axacaq suya qalır. Ancaq buradan su axmır ki,  axmır. Onlar da bu bulağın qarşısında oturub gözləyirlər ki, bəlkə, kiminsə yadına düşə və buraya su buraxa, ağaclara qulluqdan sonra əl-üzlərini yuyub sərinləyələr.

Mən artıq təslim bayrağını qaldırıb, yanacaqdoldurma məntəqəsindəki mağazaya girdim və iki şüşə “Çınqıllı” alıb fotoqrafla bölüşdüm. Fotoqraf qalib ədə ilə suyu aldı, minnətdarlıq edib suyu son damlasına qədər həzm-rabedən keçirdi.

Dünən yenə bulaq-abidə kompleksləri ilə bağlı Naxçıvan-Ordubad magistralının Culfa rayonu ərazisində, “Dərəlik” adlanan yerdə bir hadisənin şahidi oldum. Ailəsi ilə birlikdə avtomobillə səyahət edən bir xarici ölkə vətəndaşı yanacaqdoldurma məntəqəsinin önündəki bulaq-abidə kompleksində, sözün həqiqi mənasında, su kranları ilə “mübarizə” aparırdı. O inana bilmirdi ki, son dərəcə səliqə ilə işlənmiş, müəyyən miqdarda vəsait xərclənərək qurulan bu bulaq-abidə kompleksində uzun müddətdir, axan sular cavabdeh qurumların məsuliyyətsizliyi üzündən quruyub. Onda mənfi fikir formalaşmaması üçün yaxınlaşıb dedim ki, su xətlərində təmir işləri aparıldığından burada su yoxdur.

Cavabı isə belə oldu:

– Biz keçən il də buraya səfər etmişdik. Bu bulaqdan o zaman da su gəlmirdi. Təmir işləri nə vaxt başa çatacaq?

Doğrusu, qonağa cavab verə bilmədim. Yəqin ki, muxtar respublikanın qonağının bu sualının cavabını cavabdeh qurumların nümayəndələri tapa biləcəklər.

**✍ Səbuhi HÜSEYNOV**

## Teatrda yeni tamaşanın məşqlərinə başlanılıb

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında yeni tamaşanın məşqlərinə start verilib. Bu, yazıçı Elçinin “Arılar arasında” dramı əsasında hazırlanan tamaşadır.*

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundovdur. Müasir həyatımızda nəsillər arasında yaranan əbədi problem, bir-birinin fikirlərini inkar etmək əsərdə öz əksini tapıb. Özünü həmişə haqlı sayan enerjili gənclik və onunla barışmayan təcrübəli yaşlı nəslin hansı haqlıdır? Bu sualın cavabını məhz “Arılar arasında” dramında tapmaq olar. Rolları Xalq artisti Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov, aktrisalardan Zülfiyyə Zeynalova, Zəminə Baxşəliyeva, Nurbəniz Niftəliyeva, aktyorlardan Səyyad Məmmədov və Anar Eyvazov ifa edirlər.

**Səməd CANBAXŞIYEV**

## Rayon birinciliyi başa çatıb

***Ordubad Rayon Gənclər və İdman İdarəsinin və Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında karate-do üzrə Ordubad rayon birinciliyi keçirilib.***

Birinciliyin açılışında Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev çıxış edərək iştirakçılara yarışın keçirilməsinin məqsədi haqqında məlumat verib və idmançılara müvəffəqiyyətlər arzulayıb. Birincilikdə 3 yaş qrupunda (7-8, 10-11, 12-13) 30-dan çox idmançı mübarizə aparıb. Gərgin keçən mübarizə nəticəsində 7-8 yaş qrupunda Bünyamin Zeynalov, 10-11 yaş qrupunda Fikrət Ağacanlı, 12-13 yaş qrupunda isə Hüseyn Əmirov qalib adını qazanıblar.

Sonda I, II və III yerləri tutan idmançılar təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

## Beynəlxalq Şahmat Festivalında 10 şahmatçımız mükafata layiq görülüb

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri cari ildə növbəti uğura imza atıblar. Mütəmadi olaraq beynəlxalq turnirlərdə iştirak edən və nailiyyət qazanan zəka sahiblərimiz bu dəfə Türkiyədə qüvvələrini sınayıblar. Belə ki, qonşu ölkənin Malatya şəhərində keçirilən Beynəlxalq Şahmat Festivalında 21 şahmatçımız iştirak edib. Festivalın reqlamentinə əsasən, idmançılar müəyyən edilmiş qruplarda mübarizə aparıblar. “A” qrupunda qadınlar arasında mübarizə aparan Aynur Kətanova festivalı üçüncü pillədə başa vurub. Veteranların mübarizə apardığı “B” qrupunda isə həmyerlimiz Əladdin Bayramov üçüncü olub. “C” və “D” qruplarında qızlar arasında Bəsrin Babayeva və Nazlı Hümbətova müvafiq olaraq ikinci və üçüncü pilləni tutublar. Ümumiyyətlə, turnirdə iştirak edən 21 şahmatçımızdan 10-u Malatya Beynəlxalq Şahmat Festivalında mükafatlar qazanıb.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Nəsirova Şəlalə Səttar qızının adına verilmiş əmək kitabçası itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 654